# "Azərbaycan bərpaolunan enerji sahəsində aparıcı ölkələrdən birinə çevriləcək"

Energetika naziri Pərviz Şahbazov Əbu-Dabidə IRENA Assambleyasının 14-cü sessiyası çərçivəsində "Bərpaolunan Enerjinin Üçqat Artırılması" mövzusunda keçirilən yüksək səviyyəli plenar sessiyada çıxış edib.



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, çıxışda Azərbaycanın "Bərpaolunan Enerji və Enerji Səmərəliliyinə dair Qlobal Vəd"ə qoşulması ölkəmizin "yaşıl enerji" keçidinə sadiqliyi kontekstində dəyərləndirilib. COP29-un isə Azərbaycana bərpaolunan enerjinin inkişafı ilə bağlı əldə olunmuş nailiyyətləri irəliyə aparmaq imkanı yaratdığı qeyd olunub. Bildirilib ki, COP29 yeni qlobal kollektiv maliyyə məqsədlərinin qəbulu üçün səylərin səfərbər edilməsində mühüm platforma olacaq.

"Maliyyə 2030-cu ilə qədər bərpaolunan enerjinin üçqat artırılmasının da mühüm şərtlərindəndir. İnvestisiyalar istehsal güclərinin yaradılmasına, enerji sisteminə inteqrasiyasına, şəbəkənin gücünün artırılmasına, modernləşməsinə, ölkələr arasında interkonnektorların, enerji saxlanc sistemlərinin qurulmasına yönəldilməlidir", - deyə nazir əlavə edib.

Azərbaycanın 2030-cu ilədək bərpaolunan enerji potensialının ölkə və regional miqyasda artmasına töhfə verən ölkə olacağını vurğulayan nazir bununla bağlı Avropa İttifaqı ilə enerji tərəfdaşlığının mühüm komponenti olan "yaşıl enerji"nin tədarükü ilə bağlı həyata keçirilən layihələrdən bəhs edib. Bildirilib ki, regional kontekst bərpaolunan enerjinin üçqat artırılması hədəfində strateji əhəmiyyət daşıyır. İlin sonunadək texniki-iqtisadi əsaslandırması hazır olacaq "Xəzər-Qara dəniz-Avropa" "yaşıl enerji" dəhlizi Azərbaycanı bərpaolunan enerji sahəsində regional inteqrasiyada aparıcı ölkələrdən birinə çevirəcək.

Azərbaycan.- 2024.- 18 aprel, № 77.- S.9.